Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 16-cı və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; 2026, № 1, maddələr 8, 16, № 2, maddə 110, № 3, maddə 209, № 4, maddələr 295, 300, № 5 (I kitab), maddələr 397, 403, № 6, maddə 492, № 7 (I kitab), maddələr 620, 625) aşağıdakı məzmunda 94-1-ci və 103-1-ci maddələr əlavə edilsin:

"**Maddə 94-1. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin iş vaxtı**

Bu Məcəllənin on üçüncü və on dördüncü fəsilləri kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinə onların iş vaxtını tənzimləyən normativ hüquqi aktlar nəzərə alınmaqla şamil edilir.";

"**Maddə 103-1. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin istirahət vaxtı**

Bu fəsil kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinə onların istirahət vaxtını tənzimləyən normativ hüquqi aktlar nəzərə alınmaqla şamil edilir.".

Maddə 2. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 133 (Cild I); 2025, № 4 (I kitab), maddə 306, № 6, maddə 521; 2026, № 7 (I kitab), maddə 624, № 8, maddə 770) aşağıdakı məzmunda 1.1.82-1-ci və 27-1-ci maddələr əlavə edilsin:

"1.1.82-1. **uçuş iş vaxtı** – hava gəmisinin heyət üzvünün bir və ya bir neçə ardıcıl uçuşun həyata keçirilməsi üçün hava limanına gəldiyi vaxtda (hava gəmisinin istismarçısı tərəfindən müəyyən edilən) başlayan və son uçuş başa çatdıqdan sonra hava gəmisinin yerdə hərəkətinin tam dayandığı ana qədər olan müddət;";

"**Maddə 27-1. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin iş və istirahət vaxtının tənzimlənməsi**

27-1.1. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin iş və istirahət vaxtı, o cümlədən uçuş vaxtı və uçuş iş vaxtı bu Qanunun 27-1.2-ci maddəsi nəzərə alınmaqla, bu Qanuna, Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydalara uyğun olaraq tənzimlənir.

27-1.2. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin iş və istirahət vaxtı ilə bağlı bu Qanunda və onun əsasında qəbul edilmiş

normativ hüquqi aktlarda tənzimlənməyən məsələlər Azərbaycan Respublikası Əmək Məcəlləsinin müvafiq normaları ilə tənzimlənir.

27-1.3. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin iş vaxtı aşağıdakı müddətlər əsasında müəyyənləşdirilir:

27-1.3.1. istənilən 7 (yeddi) ardıcıl gün ərzində maksimal iş saatı;

27-1.3.2. istənilən 14 (on dörd) ardıcıl gün ərzində maksimal iş saatı;

27-1.3.3. istənilən 28 (iyirmi səkkiz) ardıcıl gün ərzində maksimal iş saatı;

27-1.3.4. istənilən 1 (bir) təqvim ili ərzində maksimal iş saatı.

27-1.4. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin uçuş vaxtı aşağıdakı müddətlər əsasında müəyyənləşdirilir:

27-1.4.1. istənilən 28 (iyirmi səkkiz) ardıcıl gün ərzində maksimal uçuş saatı;

27-1.4.2. istənilən 1 (bir) təqvim ili ərzində maksimal uçuş saatı;

27-1.4.3. istənilən ardıcıl 12 (on iki) təqvim ayı ərzində maksimal uçuş saatı.”.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 oktyabr 2026-cı il
№ 499-VIIQD